# 1969-1982-Cİ İLLƏRDƏ İPƏKÇİLİKDƏ APARILAN İSLAHATLAR VƏ TUT BİTKİSİNİN EKOLOJİ FAYDALARI

**Təranə Hacıyeva*, Fövzü Poladov**

*AR KTN Heyvandarlıq Elmi-Tədqiqat İnstitutu, Göygöl rayonu*
**haciyeva.t001@gmail.ru*

Azərbaycanın təbii-iqtisadi və aqroekoloji şəraiti ipəkçiliyin inkişaf etdirilməsi üçün çox əlverişlidir. Qeyd etmək lazımdır ki, yüksək keyfiyyətli olduğu üçün Azərbaycan ipəyi həmişə istər tarixçilərin, istər təsərrüfatçıların, istərsə də tacirlərin diqqət mərkəzində olmuşdur. Bir inkaredilməz həqiqət də var ki, Azərbaycan tut sortunun yaranma və təkamül mərkəzlərindən biri sayılır. Odur ki, min illər ərzində Azərbaycan kəndlisi tut bitkisindən müxtəlif məqsədlərlə istifadə etmişdir. Tut bitkisinin yarpağı tut ipəkqurdlarının əvəzedilməz qidası olduğu üçün yüz illər boyunca onun yaxşı formalarının seçilməsinə və müxtəlif üsullarla çoxaldılmasına xüsusi diqqət verilmişdir.

Azərbaycanda baramaçılığın və ipəkçiliyin inkişafında əsaslı dönüş XX əsrin 70-ci illərinin əvvəllərinə təsadüf edir. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə qəbul olunmuş "Azərbaycan Respublikasında ipəkçiliyin gələcək inkişafına dair tədbirlər haqqında" Azərbaycan Respublikası Nazirlər Sovetinin 1971-ci il 3 mart tarixli 106 nömrəli Qərarı baramaçılığın və ipəkçiliyin inkişafına böyük təkan vermiş, görülən tədbirlər nəticəsində bu sahənin maddi-texniki bazası, sənaye potensialı gücləndirilmiş, barama tədarükü xeyli artmışdır. İpəkçiliklə məşğul olan bütün rayonlarda tut tinglərinin yaradılması, yeni çəkilliklərin salınması, yüksək məhsullu yeni çəkil sortlarının yayılması kimi mühüm məsələlər öz həllini tapmışdır. Müvafiq torpaq sahələrində, yol kənarlarında, şəhər və qəsəbələrdə tut tinglərinin əkilib becərilməsi baramaçılığın yem bazasını möhkəmləndirmişdir.

Tut ipəkqurdunun bəslənilməsi üçün təsərrüfatların ictimai binalarında, anbar və digər tikililərdə kümçülərə mövsümi yerlərin ayrılması və yaş baramanın tədarük qiymətinin yüksəldilməsi istehsalçılarda baramaçılığa marağı ilbəil artırmışdır. Belə ki, yaş barama istehsalı 1970-ci ildə 3,7 min, 1975-ci ildə 4,4 min, 1980-ci ildə 5,0 min, 1985-ci ildə isə 5,5 min ton olmuşdur.

XX əsrin 70-80-ci illərində Azərbaycan Elmi-Tədqiqat İpəkçilik İnstitutu, damazlıq stansiyaları, tingçilik təsərrüfatları və emal müəssisələri vahid kompleks şəklində fəaliyyət göstərmiş və respublikanın 60 rayonunda baramaçılıq şəbəkəsi yaradılmışdır. Həmin dövrlərdə ipəkçiliyin inkişafı sahəsində görülmüş genişmiqyaslı işlərin (geniş tut bağlarının salınması) nəticəsi olaraq, 1991-ci ildə ölkədə yaş barama istehsalı 6 min tona çatdırılmışdır. Barama istehsalı ilə isə 150 mindən çox kəndli ailəsi məşğul olmuşdur. Belə ki, həmin dövrlərdə kolxoz və sovxozlara məxsus istifadəyə yararsız torpaq sahələrində, yol kənarlarında, şəhər və qəsəbələrdə çoxlu tut tinglərinin əkilməsi baramaçılığın yem bazasını əhəmiyyətli dərəcədə möhkəmləndirmişdi. Eyni zamanda, bu sahədə elmi tədqiqat işlərinə də diqqət artırılmışdır. İpəkçilik İnstitutunda seleksiya yolu ilə yaradılmış, Dövlət sortsınağından keçmiş və yaxşı qiymət almış Xanlar-tut sortu 1973-cü (m.ş.№1616), Zakir-tut sortu 1983-cü (m.ş.№3522) və Gözəl-tut sortu isə 1989-cu ildə (m.ş.№5036) rayonlaşdırma üçün təsdiq edilmişdir. Qeyd etmək lazımdır ki, hazırda da AR KTN Heyvandarlıq Elmi-Tədqiqat İnstitutunda bu işlər davam etdirilir.

Tut və ya çəkil çoxillik bitkidir. Xalq təsərrüfatının müxtəlif sahələrində istifadə olunur. Ən başlıcası isə budur ki, tutun yarpağı təbii ipək istehsalında əvəzedilməzdir. Çünki ipəkqurdları monofaqdır, onlar yalnız tut yarpağı ilə qidalanıb böyüyür və barama sarıyırlar. Bundan başqa, onun yarpağından boyaq (rəng) istehsalında və kənd təsərrüfatı heyvanlarının yemləndirilməsində də istifadə edilir.

Tut meyvəsi (ondan hazırlanan bəhməz) lap qədim zamanlardan bir sıra xəstəliklərə qarşı mübarizə vasitəsi kimi xalq təbabətində şöhrət qazanmışdır. Bu bitkinin müalicəvi xüsusiyyətlərindən indi də təbabətdə istifadə edilir.

Meyvəsi tamlı və çox qidalı olub, tərkibində şəkər və vitaminlərin zənginliyinə görə xüsusilə fərqlənir. Tut meyvəsi istər təzə, istər qurudulmuş, istərsə də başqa formalarda emal edilir. Ondan spirt, doşab, sirkə, mürəbbə, şirə hazırlanır.

Tut bitkisinin oduncağı bir sıra yüksək texniki xüsusiyyətlərə malikdir. Belə ki, möhkəmliyinə görə inşaat materialı kimi şöhrət qazanmış palıd ağacından heç də geri qalmır. Üstəlik, tut ağacı oduncağının keyfiyyəti ondan nəinki yalnız inşaat materialı kimi istifadə etməyə, hətta mebel, çəllək və musiqi alətləri

hazırlamağa da imkan verir. Tutun meyvəsindən quşçuluqda yüksək kalorili yem kimi istifadə edilir. Payızda tut ağacı xəzəlinin hamısını kənd təsərrüfatı heyvanları həvəslə yeyir.

Tut ağacının müxtəlif növləri çətirlərinin formasına görə (pramidaşəkilli, girdə, ilanvari, sallaqçətirli) dekorativ bağçılıqda əsas bitkilərdən sayılır.

Nəhayət, tut bitkisindən tarlaqoruyucu meşə zolaqları salınmasında da geniş istifadə edilir.

Göründüyü kimi, tut bitkisindən yalnız ipəkçilikdə deyil, həm də meyvəçilikdə, meşəçilikdə, dekorativ bağçılıqda, tikintidə geniş istifadə etmək mümkündür. Odur ki, onun bütün rayonlarda əkilib-becərilməsi son dərəcə zəruridir.

Yuxarıda deyilənlərlə yanaşı, tut bitkisindən digər sahələrdə də: külək və su eroziyasının qarşısının alınmasında, qumluqların və dərələrin möhkəmləndirilməsində (mil kökü torpağın dərin qatlarında inkişaf etdiyinə görə), tarlaqoruyucu meşə zolaqlarının salınmasında, şəhər və qəsəbələrin yaşıllaşdırılmasında geniş miqyasda istifadə edilməsi daha məqsədəuyğundur.